3
2023

# GÖYƏRÇİN

İSSN-0207-4710





# QIRX DOST NAĞILI

(Türk xalq nağılı)

Qədim zamanlarda həddindən artıq zəngin bir kişi var imiş. Lakin onun oğlu ipə- apa yatmayan, tələbxərc bir gənc imiş. Atası ona nə qədər öyüd-nəsihət etsə də, faydası olmazmış.

Bu oğlan pulun, var-dövlətin hesabına özünə qırx dost tutubmuş. Bu qırx dostun hər biri oğlanın bədxərcliyi hesabına varlanmış, hərəsi bir tacirə çevrilmişdi...

Oğlanın atası dünyasını dəyişəndə ona belə bir vəsiyyət edir: "Oğlum, sən mənim heç bir sözümə qulaq asmadın. Bilirəm ki, mən öləndən sonra sən çətinliyə düşəcəksən. Bax o vaxt tavandakı halqadan özünü asarsan!"

Lakin bu sözlərin də oğlana heç bir təsiri olmamışdır. Atasının min əzablı yığıb topladığı var-dövləti onun-bunun yolunda xərcləmişdir.

Nəhayət, bir gün onun pulu tükənir. Dost sandığı insanlar bir vaxt ağamız dedikləri insandan üz döndərdilər. Onun pulu ilə tacirə dönən qırx dost oğlanı yaxına belə buraxmırlar. "Yaxın gəlmə, üstündəki bitbirə bizim də üstümüzə keçər" - demişlər.

Bir dəfə dostların qırxı da birlikdə gəzintiyə gedərkən oğlan yalvarır ki, onu da özləri ilə aparsınlar. Deyir ki, siz oynayanda, mən yeməyinizi bişirər, pal-paltarınıza keşik çəkərəm.

Dostlar razılaşırlar. Onlar əyləncə ilə məşğul olanda oğlan iki qaz qızardır, plov bişirir ki, keçmiş dostları acanda gəlib yesinlər. Elə bu vaxt bir qızılquş şığıyıb qazları caynaqlarına vurub havaya qalxır, gözdən itir.

Dostlar gəlib "hanı yemək" - deyə soruşanda oğlan deyir:

-Qazları çalağan apardı.

Keçmiş dostlar hərəsi əlinə bir zopa alıb oğlanı döyməyə başlayırlar. Biçarə cavan zorla qaçıb canını onların əlindən qurtara bilir. Dostlarının bu hərəkətinə dözə bilməyən gənc özünü atasının dediyi yerdən asmaq qərarına gəlir. İlgəyə bağlanan kəndir dartılanda, üstünə yuxarıdan ləl-cəvahirat tökülür.

Oğlan cəvahirlərdən birini əlinə alıb: "ağalar, bu nədir?"- deyə soruşanda qırx dostun qırxının da əlindən zopa yerə düşür, onlar deyirlər:

-Biz bilmərik, onu sərraf bilər.

Oğlan çox bahalı daş-qaşı sərrafın yanına aparıb satır, evinə lazım olan hər şey alır, yenidən zəngin bir adama çevrilir. Sonra o qırx gəncin əlinə qırx zopa verib evlərinə gətirir, sonra keçmiş dostlarını qonaq çağırır və onlara deyir:

-Dostlar, mənim qılıncımın ucunu siçan yeyib.

Keçmiş qırx dost: "Olar, olar, siçandan nə desən gözləmək olar" söyləyirlər.

Oğlan hirslə deyir:

-Ey namussuzlar, qılıncı siçan yeyə bilirsə, qazı çalağan apara bilməzmi? Sonra oğlanın əmri ilə qırx oğlan gizləndiyi yerdən çıxıb, müsafirləri zopalamağa başlayır. Etibarsız dostlar zorla qaçıb canlarını qurtara bilirlər.

O gündən sonra oğlan bir daha əvvəlki kimi etmir, etibarsız dostlara güvənmir və gözəl bir ömür sürməyə başlayır. O başa düşür ki, adamlar insanla var-dövlətinə görə dostluq edirmişlər. Var-dövləti əlindən gedən adamın dostları isə düşmənə çevrilirmiş...

Tərcümə edib uşaqlar üçün işləyən: R.Y.Əliyev

